

## Azər MUSTAFAZADƏ

Amansız ölüm qələm yoldaşımız Azər Mustafazadəni aramızdan apardı.

Azər Abdulla oğlu Mustafazadə 1939-cu il martın 27-də Bakıda anadan olmuşdur. Burada orta məktəbi bitirdikdən sonra bir il "Bakinski raboçi" qəzetində işləmişdir. 1960-cı ildə M.Qorki adına Moskva Dünya Ədəbiyyatı İnstitutunun tərcümə bölməsinə qəbul olunmuş, 1964-cü ildə təhsilini tamamlamışdır. Həmin il "Literaturnı Azerbaydjan" jurnalında işə qəbul edilmiş, ədəbi işçi, şöbə müdiri, məsul katib vəzifələrində çalışmışdır. 1968-1971-ci illərdə "Literaturnaya qazeta"nın Azərbaycan üzrə xüsusi müxbiri, 1977-1972-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin Asiya və Afrika yazıçıları ilə əlaqə üzrə məsul katibi, 1972-1983-cü illərdə SSRİ Yazıçılar İttifaqında məsləəhətçi, 1983-1987-ci illərdə Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin sədr müavini, 1987-1988-ci illərdə Azərbaycan KP MK mədəniyyət şöbəsinin müdiri, 1988-1990-cı illərdə Azərbaycan KP Şəki şəhər Partiya Komitəsinin birinci katibi olmuşdur. 1990-cı ildən "Azərnəşr"-in direktoru idi.

1961-ci ildən mətbuatda bədii tərcümələri, publisistik və tənqidi yazıları ilə çıxış etmişdir. 1966-cı ildə onun tərcüməsində görkəmli ədəbiyyatşünas alim Məmməd Cəfərin "Cəlil Məmmədquluzadə" monoqrafiyası rus dilində işıq üzü görmüşdür. M.İbrahimovun "Mənim həyatımın kitabı", S.Əhmədovun "Yamacda nişanə", F.Kərimzadənin "Qarlı aşırım" kitablarını, həmçinin, Azərbaycan ədəbiyyatından bir çox nümunələri tərcümə edərək, Moskvada nəşr etdirmişdir.

Azər Mustafazadənin yaradıcılığı və əmək fəaliyyəti yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikasının "Şöhrət", 2-ci dərəcəli "Əmək" ordenləri, Rusiya Federasiyasının "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür. Azərbaycan Respublikasının Fərdi təqaüdçüsü idi.

İstedadlı qələm yoldaşımız, təvazökar, səmimi insan Azər Mustafazadənin işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 4 fevral.- S. 23.